**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaş İdrisov Şıxzada İbrahim oğlunun 05 yanvar 2010-cu il tarixli müraciətinə baxılması barədə**

**R Ə Y İ**

Bakı şəhəri

08 yanvar 2010-cu il,
saat 12.00

2009-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 51 saylı Qusar seçki dairəsinin 41 saylı seçki məntəqəsində müşahidəçi olmuş İdrisov Şıxzada İbrahim oğlu 05 yanvar 2010-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciətdə göstərilir ki, müşahidəçi tərəfindən səsvermənin gedişində, səslərin hesablanmasında və nəticələrin rəsmiləşdirilməsində məntəqə seçki komissiyasının sədrinin və üzvlərinin, eləcə də namizədlərin təşəbbüsü ilə müşahidə aparan şəxslərin yol verdikləri qanun pozuntuları barədə 51 saylı Qusar seçki dairəsinin dairə seçki komissiyasına verdiyi şikayətə adı çəkilən dairə seçki komissiyası tərəfindən baxılmamışdır. Ona görə də dairə seçki komissiyasının hərəkətsizliyindən şikayət edərək müvafiq qərar qəbul edilməsini xahiş etmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, müşahidəçi İdrisov Şıxzada İbrahim oğlunun qeyd edilən qanun pozuntuları barədə dairə seçki komissiyasına verdiyi şikayəti müəyyən edilmiş qaydada qeydə almış, dairə seçki komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır. Şikayət əsassız olduğu üçün təmin edilməməsi barədə 29 dekabr 2009-cu il tarixli 64/106 saylı qərar qəbul edilmişdir.

Əldə olunan sübutlarla dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı müraciətdə irəli sürülmüş iddialar təkzib olunduğundan və öz təsdiqini tapmadığından müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənlərə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və adı çəkilən Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m**:

1. Vətəndaş İdrisov Şıxzada İbrahim oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 05 yanvar 2010-cu il tarixli 402 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası Mərkəzi
Seçki Komissiyası nəzdində
ekspert qrupunun üzvü — Ramiz İbrahimov